# Azərbaycan Avrasiya məkanı üçün açar ölkədir

## Bu baxımdan Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasına qonaq qismində dəvət edilməsi təsadüfi deyil

**İstər hərbi qüdrətinə, istərsə də iqtisadi gücünə görə Azərbaycan Cənubi Qafqazda lider dövlətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik və qətiyyətli daxili və xarici siyasət sayəsində ölkəmiz tarixinin ən ciddi uğurlarına imza atır. Bu uğurlar sayəsində Azərbaycan həm də Avrasiyanın çox mühüm nəqliyyat və enerji qovşağına çevrilir.**

Azərbaycan Avrasiya İqtisadi Birliyinin üzvü olmasa da, bu quruma daxil olan dövlətlərlə (Ermənistan istisna olmaqla) 30 ildir ki, uğurla əməkdaşlıq edir. (Yeri gəlmişkən, onu da bildirək ki, ölkəmiz Ermənistanla da münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında beynəlxalq təşkilatların, eləcə də Rusiya tərəfinin təşəbbüsü və vasitəçiliyi ilə ardıcıl iş aparır və əməkdaşlığa hazır olduğunu ifadə edir). Xatırladaq ki, ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artaraq 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi isə 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub.

Ölkəmizin əlverişli coğrafi mövqeyi - "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat yollarının kəsişməsində yerləşməsi Avrasiya ölkələri ilə daha geniş əməkdaşlıq perspektivlərinə yol açır. Azərbaycanın nəqliyyat-logistika infrastrukturu da bu istiqamətlərdə daşımaları həyata keçirməyə imkan verir. Biz Xəzər dənizində 50 gəmidən ibarət ən böyük ticarət donanmasına malikik. 15 milyon ton yükün daşınmasına hesablanmış Ələt Dəniz Limanı yaxın vaxtlarda modernləşdirilərək yükdaşırmaların həcmini 25 milyon tona çatdıracaq. Azərbaycan eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolu ilə Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Ölkəmiz həmçinin "Şimal-Cənub nəqliyyat dəhlizi" layihəsinin fəal iştirakçısıdır. Bütün bunlar isə sözsüz ki, Azərbaycanın Avrasiya üçün açar ölkə olduğunu təsdiqləyir.

Xəbər verildiyi kimi, mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası keçirilmişdir. İclasda Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putin Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak etdiyinə belə qiymət vermişdir: "Mənim üçün qeyd etmək xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev bugünkü iclasda ilk dəfədir qonaq qismində iştirak edir".

Dövlətimizin başçısı isə tədbirdə iştirakını belə dəyərləndirmişdir: "Təxminən dörd ildir Azərbaycan 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır. Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulu (ÜDM) 3 dəfədən çox artıb. Yoxsulluğun səviyyəsi təxminən 50 faizdən 5 faizə enib. Xarici borc ÜDM-nin demək olar ki, 9 faizindən aşağı səviyyəsindədir və ildən-ilə azalır. Azərbaycanın valyuta ehtiyatları xarici borcu 10 dəfə üstələyir. Hazırda qarşımızda duran başlıca məsələlərdən biri ixracın şaxələndirilməsidir. İqtisadiyyatın şaxələndirilməsinə gəlincə, bu məsələ uğurla həll olunur. Azərbaycan iqtisadiyyatının böyük hissəsi artıq qeyri-xammal sektorunda formalaşır. İxracata gəlincə, qeyri-xammal sektorunun ixracını artırmaqdan ötrü biz hələ fəal işləməliyik. Qeyd olunduğu kimi, mən Avrasiya İqtisadi Birliyinin sammitində ilk dəfədir iştirak edirəm. Halbuki biz Avrasiya İqtisadi Birliyinə üzv dövlətlərin başçıları ilə həm Müstəqil Dövlətlər Birliyinin sammitləri çərçivəsində, həm də ikitərəfli formatda müntəzəm görüşürük. Buna görə də baxmayaraq mən ilk dəfədir qonaq qismində iştirak edirəm, lakin yəqin ki, burada qonaq deyiləm".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 28 may.- S.15.